AZCD
Group

# ENERJİ İDARƏETMƏ SİSTEMİ SİYASƏTİ

"AZCD Group" QSC-nin (bundan sonra "Cəmiyyət" adlanacaq) başlıca məqsədi öz işində Enerji İdarəetmə Sistemi Prinsiplərini əsas tutaraq lisenziya çərçivəsində özəl, mülki və sənaye yönümlü tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işlərinin layihələndirməsi və inşa edilməsi kimi xidmətlər göstərməklə müştərilərin tələblərini yüksək səviyyədə təmin etməkdir.

Bununla əlaqədar olaraq Cəmiyyətin rəhbərliyi tərəfindən bu istiqamətdə aşağıdakı hədəflər müəyyənləşdirilmişdir:

- ISO 50001:2018 standartının tələblərinə uyğun olaraq Enerji İdarəetmə Sisteminin işini yaratmaq, tətbiq etmək və inkişaf etdirmək;
- Qanunvericiliyin tələblərinə əməl etməklə Cəmiyyətdə və onun struktur bölmələrində Enerji İdarəetmə Sistemini davamlı olaraq təkmilləşdirmək;
- Müştərilərin tələb və təkliflərinə uyğun olaraq bina və qurğuların tikinti-quraşdırma işlərini və bununla əlaqədar göstərilən digər xidmətlərin icrası zamanı enerji sərfiyyatını optimallaşdırmaq;
- Cəmiyyətin və onun struktur bölmələrinin fəaliyyəti ilə bağlı tətbiq edilən Enerji İdarəetmə Sistemini əhatə edən normativ sənədlərin tələblərini yerinə yetirmək;
- Cəmiyyətin əməkdaşlarının Enerji İdarəetmə Sistemi üzrə peşəkarlıq səviyyəsini daim inkişaf etdirmək və enerji effektivliyinin yüksəldilməsi istiqamətində onların motivasiyasını artırmaq;
- Müştərilərin məmnunluğunu qazanmaq üçün Cəmiyyətdə və onun struktur bölmərində bütün mövcud riskləri nəzərə almaqla enerji effektivliyini düzgün və vaxtında təmin etmək;
- Yerli və beynəlxalq səviyyədə fəaliyyət sahəmizdə enerji effektivliyini daim nəzərə alan qabaqcıl tikinti şirkəti kimi tanınmaq;
- Biznesin inkişafını təmin etmək məqsədi ilə şirkətin fəaliyyəti üzrə keçirilən tenderlərdə, görüşlərdə, sərgilərdə, forumlarda fəal iştirak etmək;
- Partnyorlarla əlaqələrin idarə edilməsi hədəflərinə qarşılıqlı olaraq çatmaq baxımından yanaşmaq;
- ISO 50001:2018 standartının tələblərini əhatə edən müasir infrastrukturla təmin edilmiş iş yerlərinin və effektiv iş mühitinin yaradılmasını əsas meyarlardan biri kimi qəbul etmək.

"AZCD Group" QSC bu siyasəti, Enerji İdarəetmə Sisteminin hədəflərini və məqsədlərini müəyyən etmək və nəzərdən keçirmək üçün bir əsas götürür və ictimaiyyət, şirkətin əməkdaşları, müştəriləri, partnyorları və təchizatçılarına bəyan etməyi öhdəsinə götürür.

Azərbaycan Respublikası QAPALI SƏHMDAR CƏMİYYƏTİ AZCD GROUP Closed Joint-Stock Company Azerbaijan Republic

**Direktor Müavini:**

**Toğrul Sadıxlı**

**Oktyabr 2024**